GOODWILL
AUDIT CONSULTING

MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"Ərazi Tikinti-Planlaşdırma Mərkəzi" nin Rəhbərliyi və Təsisçilərinin nəzərinə:

Rəy

Biz " Ərazi Tikinti-Planlaşdırma Mərkəzi " nin (bundan sonra "Mərkəz") 31 dekabr 2019-cu il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabat və başlanğıc tarixindən (5 aprel 2019-cu il) 31 dekabr 2019-cu il tarixinədək başa çatmış dövr üzrə mənfəət və zərər haqqında hesabatının audit yoxlamasını apardıq.

Bizim rəyimizə əsasən, əlavə edilmiş maliyyə hesabatları Mərkəzin 31 dekabr 2019-cu il tarixinə maliyyə vəziyyətini, habelə Mərkəzin yarandığı gündən göstərilən tarixədək başa çatan il üzrə maliyyə nəticələrini Maliyyə Hesabatlarının Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına (KTMMUS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

Rəy üçün Əsaslar:

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üçün Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Mərkəzdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Maliyyə Hesabatlarına görə Rəhbərliyin və Audit Komitəsinin Məsuliyyəti:

Rəhbərlik maliyyə hesabatlarının KTMMUS -a uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Mərkəzi ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Mərkəzin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyəti verilmiş şəxslər Mərkəzin maliyyə hesabatları prosesinə nəzarət etmək üçün məsuliyyət daşıyır.

**Qudvill Audit Consulting:**

**Səyyarə Əliyeva**
**Baş auditor**
**29 mart 2020-ci il**
**Bakı, Azərbaycan Respublikası**

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti QUDVİLL AUDİT CONSULTING Limited Liability Company Azerbaijan Republic